## Məmməd Cəfər Cəfərov - 100

# Azərbaycan ədəbiyyatı nəzəriyyəsi elmi məktəbinin yaradıcısı

**Yeni dövr Azərbaycan elminin formalaşmasında və inkişafında mühüm xidmətləri olan görkəmli alim, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Məmməd Cəfər Cəfərovun (1909-1992) mənalı ömür yolu və çoxcəhətli fəaliyyəti elmimizin və ictimai fikrimizin XX əsr mərhələsinin ən uca zirvələrindən birini təşkil edir.**



Həyatının ən çətin və keşməkeşli illərini yaşadığı, doğulub boya-başa çatdığı Naxçıvan şəhərində keçən dövr (1909-1931) Məmməd Cəfər Zeynalabdın oğlu Cəfərov üçün sözün əsl mənasında həyat uğrunda mübarizə illəri kimi səciyyələnir. On yaşında ikən bir ayın içində anasını və atasını itirib ailə başçısının qayğıları ilə yaşamalı olan, dərzi şagirdi, baqqal köməkçisi işləyən, on iki yaşından çörəkçi yanında kündəgirlik edən Məmməd Cəfər Cəfərov böyük məhrumiyyətlərə sinə gərərək iki bacısını yaşatmış, butun çətinliklərə baxmayaraq, sanki təndir alovunda bişib möhkəmlənmiş, zamanın sınaqlarından şərəflə çıxmışdır. Hələlik bəzi parçalarını təqdim etdiyimiz "Xatirələr" memuarındakı aşağıdakı sətirlər Məmməd Cəfərin uşaqlıq və ilk gənclik illərindəki böyük qayğılarını aydın və real təsəvvür etməyə imkan verir: *"Kündəgirin vəzifəsi hava təzəcə işıqlananda gəlib hazır xəmirin kündələrini salmaq, sonra da bu işi axşama kimi davam etdirmək idi... əgər quldarlıq dövründən başı çıxan bir tarixçi gəlib bizim işləməyimizi müşahidə etsə idi, elə bilərdi ki, biz dörd nəfər (xəmirgir, kündəgir, lavaş açan və şatır - İ.H.) kiminsə köləsiyik. Çünki bizim əməyimiz kölə əməyinə oxşayırdı. Geyimimizə görə də bizi köləyə oxşatmaq olardı... Kündəgir iki ovcunda xəmiri elə ustalıqla götürməli idi ki, kündələrin hamısı bir boyda, bir çəkidə olsun... Əgər kündə 200 qramdan artıq olsaydı sahibkara zərər idi, əgər az olsaydı alıcıya xəyanət idi. Kündəgirin kündə salmaqdan başqa vəzifələri də vardı. Bunlardan biri, təndirin yanında saman qurtardıqca anbardan təlisdə saman gətirmək idi. Samanın da yaman tozu olurdu. İkinci vəzifə sahibkarın, dəxildarın, şatırın, lavaş açanın, xəmirgirin evinə ət-çörək aparmaq idi. Üçüncü vəzifə ət, noxud alıb nahara piti bişirmək idi... dördüncü vəzifə işə başlamazdan və işdən sonra dükanı silib-süpürmək idi. Bu vəzifələri yerinə yetirmək üçün kündəgir iş sürətini artırıb o qədər kündə salıb qoymalı idi ki, bu əlavə işləri görəndə lavaş açan məəttəl qalmasın.*

*...Biz əmələlər günəmuzd işləyirdik. Hamıdan az muzd alan mən idim. Bununla belə, mənim gündəlik muzdum ailəmiz üçün ət-çörəyə və qənd-çaya çatırdı... Bacılarım üçün anamızı nənəm, atamızı mən əvəz edirdim".*

Beləliklə, Naxçıvanın bazar-dükan mühiti Məmməd Cəfər Cəfərovun birinci həyat məktəbi olmuşdu. O, valideynlərindən başqa, ilk "dərslərini" bazar-dükan mühitində təbii yolla almışdı. Bu mühitdə müşahidə etdiyi süd anası "hafizəsi tükənməz xəzinə olan", nağılları bir neçə gün davam edən "ilk bədii söz müəllimi" adlandırdığı qonşuları Zəhra xala, Məhəmməd Tağı Sidqinin qəzəllərini muğamat üstündə oxuyan, sonra xanəndəlikdən əzançılığa keçən Kərbalayı Baxşəli, "gündəlik qazancının yarısını qəzet-jurnala verən, elanlara qədər oxuyan" dəxildar - çörəksatan Bağır əmi Bektaşi onun yaddaşında dərin izlər buraxmışdı. Hətta gələcək böyük ədəbiyyatçı sonralar bu mühitdən tanıdığı "hər səhər bir əlində dəmir çəlik, birində xırda çölmək evdən çıxıb bazara gələn" və pitisi bişənə qədər ətrafındakılara Şərq ədəbiyyatından "farsca qəzəllər oxuyub tərcümə və təfsir edən" kor Adıgözəlin, XX əsrin əvvəlləri Azərbaycan və türk şairlərinin şeirlərini "coşqun bir ilhamla oxuyub şərh etməkdən, mənalandırmaqdan özü də xüsusi zövq alan" söhbətcil müştəri, börkçü Qulamhüseynin xidmətlərini "ədəbiyyat müəllimi" səviyyəsində dəyərləndirmişdir. Bütün bunların nəticəsində o, hələ texnikum tələbəsi olmamış "Hicran" adlı beşpərdəli dram, bir neçə şeir də yazmış, boş vaxtlarında, xüsusən, axşamlar cızma-qara ilə məşğul olmuş, "kündəgir" imzası ilə ilk mətbu yazısı olan şeirini "İşçi-kəndli müxbiri" məcmuəsində çap etdirmişdi.

Əlyazmalarından öyrənirik ki, "Hicran" adlandırılan beşpərdəli bu əsərdə "iki məsumənin qəmli taleyi" öz əksini tapmışdır. Daha konkret desək, cavan qələm sahibi real həyatda görüb tanıdığı Səltənətin timsalında azyaşlı, "göyərçin kimi məsum və müdafiəsiz bir qızı özünə arvad edib, sonra da özü kimi dilsiz bir körpəsilə qanadlarını yolub küçəyə atmaq, onu el arasında xar etmək" əhvalatlarının doğurduğu faciəli hallara etiraz əlaməti olaraq "Hicran" pyesini yazmağı özünə borc bilmişdi. Bundan başqa, onun "erməni-müsəlman qırğını əleyhinə çıxan xəyali qəhrəman Qüdrətin həyatından" bəhs edən ikipərdəli yarımçıq qalmış bir pyes yazması barədə qeydləri də vardır. Heç şübhəsiz, bütün bunlar Məmməd Cəfər Cəfərovun gənclik illərindəki özünü axtarış dövrünün əks-sədaları idi.

Gənc Məmməd Cəfər Cəfərov bu qədər ağır zəhmətin, böyük qayğıların girdabında olmasına baxmayaraq, əvvəlcə Naxçıvan xeyriyyə məktəbində, şəhərdəki rus-tatar məktəbində, sonra savad kurslarında, daha sonra isə 1928-1931-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda təhsil almışdır. Yeməyə və paltara ehtiyacı olanlardan ibarət Leyli qrupunda təmsil olunan tələbə yoldaşları ilə birlikdə texnikum müdiriyyəti tərəfindən verilmiş "brezent parçadan tikilmiş bir sırıxlı soldat yarımpaltosu, bir köynək, qalifei şalvar, kepka, eyni parçadan dolaq və botinka" geyinən, tələbəlikdən çox "fəhlə batalyonunu" xatırladan tələbə mühitindəki səyləri, məsuliyyətli çalışmaları ilə o, biliklərə dərindən yiyələnməsi ilə fərqlənmiş, qısa müddətdə nəinki çətin ailə vəziyyəti ilə əlaqədar əvvəllər yaranmış boşluğu aradan qaldırmış, hətta təhsildə fərqləndiyi üçün texnikumu bitirməmiş pedaqoji şuranın qərarı ilə Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumaq üçün göndəriş almaq hüququ qazanmışdı. İndiki Azərbaycan Dövlət Pedaqoji İnstitutunda keçən təhsil illəri (1932-1935), burada Bəkir Çobanzadə, Feyzulla Qasımzadə, Zeynal Tağızadə, Mikayıl Rəfili, Məmməd Arif Dadaşzadə, Əli Sultanlı, Hacıbaba Nəzərli, Hənəfi Zeynallı, Əli Nazim, Seyfulla Şamilov, Zəkizadə, Hökümə Sultanova, Qubaydullin kimi bir çoxu az qala, öz həmyaşıdları olan istedadlı müəllimlərdən aldığı dərslər onun ideya-mənəvi təkamülündə mühüm əhəmiyyət kəsb etmişdir. Pedaqoji İnstitutda Hacıbaba Nəzərlinin elmi rəhbərliyi ilə "Volterin bədii yaradıcılığı" mövzusunda yazdığı elmi-tədqiqat işi cavan ədəbiyyatşünas Əli Nəzminin rəyi əsasında "əla" qiymətə layiq görülmüşdü. Məmməd Cəfər Cəfərov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun o illərdəki fəaliyyətini belə dəyərləndirmişdir: *"APİ Azərbaycan maarifi, mədəniyyəti üçün ... mənim bəhs etdiyim illərdə müəyyən iş gördü. Nəinki müəllimlər, ...elmi işçilər də yetişdirdi. Azərbaycan maarif və mədəniyyət işçilərinin, Azərbaycan yazıçılarının yeni nəsli burada tərbiyə olundu".*

Akademik Məmməd Cəfər Cəfərovun sonrakı həyatının böyük bir mərhələsi müəllimlik işinə həsr edilmişdir. O, ali məktəbi bitirdiyi 1935-ci ildən sonra 30 ildən artıq müxtəlif ali məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan Dövlət Universitetində və Azərbaycan Dövlət Pedaqoji İnstitutunda filologiya fakültəsinin dekanı, Rus ədəbiyyatı kafedrasının müdiri, Quba Müəllimlər İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışdığı illərdə həyatını müəllim kadrlarının və yeni nəsl elmi qüvvələrin formalaşmasına və inkişafına həsr etmişdir. Məmməd Cəfər Cəfərovun Azərbaycan ali məktəblərində uzun illər ərzində Qərb ədəbiyyatından və rus ədəbiyyatından oxuduğu dərin məzmunlu mühazirələr yeni dissertasiyaların, monoqrafiyaların və dərsliklərin meydana çıxmasına zəmin hazırlamışdır. Akademik Məmməd Cəfər Cəfərovun yazıb nəşr etdirdiyi üç cildlik "XIX əsr rus ədəbiyyatı tarixi" dərin və sistemli araşdırmaların nəticəsində ərsəyə gəlmiş ali məktəblər üçün nadir dərslikdir. Bu, rus ədəbiyyatının XIX əsr tarixinin dəyərli və sanballı bir salnaməsi olmaqdan çox, həmin tarixi epoxanın monoqrafik tədqiqi və şərhindən yoğrulmuş əhəmiyyətli elmi əsərdir. Görkəmli alimin akademik Feyzulla Qasımzadə ilə birlikdə əsas müəllifi olduğu IX-X siniflər üçün dərslikləri keçən əsrin 50-70-ci illərində otra məktəblərin müəllimləri və şagirdlərinin əsas ədəbiyyat kitabına çevrilmişdir. Onun 1967-ci ildə çapdan çıxmış "Estetik tərbiyə, ailə və məktəb" kitabı bu formatda təhsilin və yeni nəslin tərbiyəsi məsələlərinə həsr olunmuş yeganə əsərdir. Millilik və müasirlik Məmməd Cəfər Cəfərovun təkcə elmi və bədii əsərlərinin deyil, müəllimlik fəaliyyətinin və maarifçi estetikadan söz açan əsərlərinin də ana xəttini təşkil edir.

Çoxcəhətli fəaliyyət sahələri ilə məşğul olmasına baxmayaraq, Məmməd Cəfər Cəfərovun həyatında, taleyində, məşğuliyyətində elm həmişə ön mövqedə dayanmış, üstünlük qazanmışdır. Görkəmli elm xadimi hələ Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tələbəsi və aspirantı ikən elmə ciddi münasibəti ilə seçilmiş, elmi mühitə yeni nəfəs gətirən gənc mütəxəssis kimi diqqəti cəlb etmişdi. Məmməd Cəfər Cəfərovun 1944-cü ildə "Mirzə Fətəli Axundovun ədəbi-tənqidi görüşləri" mövzusunda böyük uğurla müdafiə etdiyi namizədlik dissertasiyası Azərbaycan ədəbiyyatşünaslıq elmində tənqid tarixinə həsr olunmuş ilk sanballı elmi əsər kimi mühüm əhəmiyyət kəsb edir. Bu qiymətli əsərdə Mirzə Fətəli Axundovun sənətdə bədiilik və müasirlik, tipiklik və xəlqilik, məzmun və formanın vəhdəti, dil və üslub məsələləri haqqındakı təlimi elmi sistem şəklində müəyyən edilmiş, əsaslı surətdə şərh olunmuşdur. Ədəbi-ictimai mühitdə əsasən "Azərbaycan dramaturgiyasının atası" kimi daha çox tanınıb şöhrət qazanmış Mirzə Fətəli Axundov məhz Məmməd Cəfər Cəfərovun ciddi elmi araşdırmalarından sonra həm də nəinki Azərbaycanın, geniş miqyasda "Şərqin ilk ədəbiyyat tənqidçisi" səviyyəsində təqdim edilmişdir. Bundan başqa, M.C.Cəfərov tənqid tarixi istiqamətində yazılmış əksər elmi əsərlərdən fərqli olaraq, məsələyə daha çox ədəbiyyat nəzəriyyəsi istiqamətində yanaşmaqla bu tipli tədqiqatların orijinal modelini yaratmışdır. Ona görə də "M.F.Axundovun ədəbi-tənqidi göstərişləri" əsəri Məmməd Cəfər Cəfərovu ciddi bir ədəbiyyat tənqidçisi olmaqla yanaşı, həm də professional ədəbiyyat nəzəriyyəçisi olduğunu isbatlamışdır. Bundan başqa, həmin əsərdə sənətkar Axundovla filosof-tənqidçi Axundovun möhkəm vəhdət təşkil etməsi məsələsi də elmi şəkildə əsaslandırılmışdır. Bunun ardınca, 1962-ci ildə tamamlanmış M.F.Axundova həsr edilmiş "Mütəfəkkirin şəxsiyyəti" əsəri Azərbaycanda ədəbi şəxsiyyətin elmi-fəlsəfi dərkinə həsr olunmuş birinci tədqiqatdır. Mirzə Fətəlinin sənətinə və şəxsiyyətinə həsr olunan və hər ikisi də orijinal olan bu əsərlərlə cavan müəllif görkəmli axundovşünas alim olduğunu da təsdiqləmişdir. "Mütəfəkkirin şəxsiyyəti" əsəri ilə ədəbiyyatşünaslıqda ilk dəfə olaraq şəxsiyyətin də elmin predmeti olması ənənəsinin əsası qoyulmuşdur. Bütün bunların nəticəsində Məmməd Cəfər Cəfərov elmi-ədəbi mühitdə cavan yaşlarından etibarən "filosof-tənqidçi", "Azərbaycan ədəbiyyatşünaslığının Belinskisi" kimi hamı tərəfindən etiraf olunan fərqli və uca rütbələr qazanmışdır. Əslində, "Mirzə Fətəli yaradıcılığı bizim ondan sonrakı ədəbiyyatımızın manifestidir" deyən Məmməd Cəfər Cəfərov özü də Azərbaycan ədəbiyyatşünaslıq elminin manifestini yaratmışdır.

Akademik Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid və Azərbaycan ədəbiyyatında romantizm" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası da (1962) monumental tədqiqat əsəridir. Ümumiyyətlə, "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası romantizm estetikasının elmi-nəzəri prinsiplərinə həsr olunmuş ən sanballı elmi əsərdir. Bu möhtəşəm elmi əsərdə milli romantizmin estetikası ilə poetikası vəhdətdə öyrənilib ümumiləşdirilmişdir. Azərbaycan romantizminin tipologiyası və tarixi müqəddəratı məsələsi həmin əsərdə özünün dərin nəzəri həllini tapmışdır. "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası ilə Məmməd Cəfər Cəfərov görkəmli bir ədəbiyyat nəzəriyyəçisi olduğunu qabarıq şəkildə nəzərə çarpdırmışdır. İndinin özündə "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası Avropa dillərinə tərcümə edilib nəşr olunsa, Qərbdə Azərbaycan ədəbiyyatşünaslıq elminə böyük şöhrət qazandıra bilər.

Görkəmli alimin müxtəlif vaxtlarda yazdığı "Klassik romantizm ənənələrinə münasibətimiz", "Cavid yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", "Yeni həyat, yeni insan, yeni sənət", "İki qurultay arasında Azərbaycan uşaq şeiri", "Azərbaycan ədəbi-bədii dilinin bəzi məsələləri haqqında", "Dil və müasirlik", "Dastanşünaslıq" və şair kimi proqram xarakterli əsərləri Azərbaycanda ədəbiyyat nəzəriyyəçiliyini dərslik mərhələsindən elm səviyyəsinə qaldırmışdır. Məmməd Cəfər Cəfərov Azərbaycan ədəbiyyatı nəzəriyyəsi elmi məktəbinin yaradıcısıdır. Böyük elm xadimi Nizami adına Ədəbiyyat İnstitutunda 1962-1980-ci illərdə uzun müddət ərzində Ədəbiyyat nəzəriyyəsi şöbəsinə rəhbərlik etdiyi dövrlərdə ədəbiyyat nəzəriyyəçilərinin böyük bir nəslinin yetişib formalaşmasında həlledici addımlar atmışdır.

Araşdırmalar göstərir ki, Məmməd Cəfər Cəfərov ədəbiyyat tarixindən, ədəbi tənqiddən, folklordan, ədəbi əlaqələrdən bəhs edəndə də məsələyə ədəbiyyat nəzəriyyəçisi kimi yanaşmışdır. Ədəbi şəxsiyyətin, bədii yaradıcılığın, problemin nəzəri şəkildə dərki və həlli Məmməd Cəfər Cəfərovun elmi fəaliyyətinin özünəməxsus modelini müəyyən edir. Azərbaycan ədəbiyyatşünaslığında Məmməd Cəfər Cəfərovun konsepsiyasının mahiyyəti elmi yanaşmada ədəbiyyat nəzəriyyəçiliyinin ağırlığında məna tapır. Bu mənada, "Nizami yaradıcılığında humanizm" monoqrafiyası, məşhur "Füzuli sevir" silsiləsi, "Cabbarlının romantikası", xalq şairi Səməd Vurğuna həsr olunmuş məqalələr ədəbiyyat tarixçiliyi ilə nəzəriyyəçiliyin üzvi vəhdətindən yoğrulmuşdur. Buna görədir ki, "Nizami yaradıcılığında humanizm" əsəri nizamişünaslıqda, Füzuli sİsilə məqalələri füzulişünaslıqda, "Ünvansız məktub" vurğunşünaslıqda mühüm elmi hadisədir. Əlyazmalarından görünür ki, M.C.Cəfərov müasiri olan sənətkarlar arasında xalq şairi Səməd Vurğunun yaradıcılığına xüsusi münasibət bəsləmişdir. Görkəmli alim etiraf edirdi ki, *"...o illərdə şairlərdən ən populyarı olan Səməd Vurğunun əsərləri məni çox cəlb edirdi. Onun çap olunmamış ilk şeirlərini yaşlı müəllimlərdən öyrənib yazmışdım... Səhv etmirəmsə, 1938-ci ilin əvvəllərində gözlənilmədən Səməd Vurğun haqqında həqiqətə uyğun olmayan və guya Səmədin varlığa idrak üslubunda səhvlərinin olduğu haqqında bir məqalə nəşr edildi. Bu məqalə məni əməlli-başlı qəzəbləndirdi. Məqaləyə cavab kimi "Səməd Vurğun yaradıcılığında xəlqilik" sərlövhəli bir məqalə yazıb "Ədəbiyyat qəzeti" redaksiyasına yolladım... Qarşıdakı illərdə də Səmədə yersiz hücumlar edildiyini, onun çoban-çoluq şairi adlandırıldığını mən bilirdim... Məqaləm çap olundu. Oxucu və yazıçılardan eşitdiyim söz bu oldu ki, Səməd Vurğun yaradıcılığında xəlqilik düzgün izah edilmişdir".*

Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid" monoqrafiyası ədəbiyyat tarixçiliyi baxımından əhəmiyyətli əsərlərdəndir, və bu gün də görkəmli romantik sənətkar haqqında əsas elmi mənbə hesab edilir. Eyni zamanda, Cəlil Məmmədquluzadə barəsində bir neçə dildə çap edilmiş elmi əsəri hazırda da mirzəcəlilşünaslığın şah əsərlərindən biri kimi qəbul olunur. Bu qəbildən olan əsərləri Məmməd Cəfər Cəfərovun romantizmlə enyi səviyyədə Azərbaycan realizminin də görkəmli tədqiqatçısı olduğunu nümayiş etdirir.

Ədəbiyyatın tədqiqi və təhlili baxımından Məmməd Cəfər Cəfərov üçün dövr, seçilmiş mərhələ, zaman, sənətkar məhduyyəti yoxdur. Hansı tarixi dövrün yazıçılarından və ədəbiyyatından bəhs etməsindən, hansı ədəbi-nəzəri problemdən söz açmasından asılı olmayaraq, bütün məqamlarda təhlillərində və dəyərləndirilməsində tam professionaldır. Görkəmli alimin əsərləri elmdə yüksək professionallığa örnəkdir. Məmməd Cəfər Cəfərovun çoxillik və çoxcəhətli elmi fəaliyyəti akademik elmin ucalığına klassik nümunədir. Akademik elmi rütbəsinin əsl ucalığı da Məmməd Cəfər Cəfərovun qiymətli əsərlərinin işığında aydın və cəlbedici görünür.

Fəaliyyət sahəsinin müxtəlifliyi və genişliyi etibarilə akademik Məmməd Cəfər Cəfərov universal düşüncəyə malik olan nadir şəxsiyyətlərdəndir. O, ədəbiyyatşünaslıq elminin ən müxtəlif sahələrində olduğu kimi, fəlsəfə və estetika, sənətşünaslıq və pedaqogika, folklorşünaslıq və dilçilik istiqamətlərində də yüksək professionallıqdan yoğrulmuş qiymətli əsərlərin yaradıcısıdır. Geniş dünyagörüş, universal düşüncə, aydın mövqe, dərin məntiqi təfəkkür, yüksək elmilik, sadə və bitkin yazı tərzi akademik Məmməd Cəfər Cəfərovun görkəmli alim kimi obrazının səciyyəvi xüsusiyyətləridir.

Bədii yaradıcılığı etibarilə də Məmməd Cəfər müəllim fərqli və bənzərsizdir. "Əntiqə adamlar" kitabında toplanan nümunələr göstərir ki, əgər o, bədii yaradıcılıqla ardıcıl məşğul olsaydı, ölkəmizin sayılıb-seçilən yazıçılarından biri ola bilərdi. Alimin arxivindən əldə etdiyimiz indiyədək naməlum qalmış "Xatirələr" memuarında bədiiliyin qabarıq şəkildə diqqəti cəlb etməsi müəlifin bu sahədəki böyük potensialını göstərir. Məmməd Cəfər Cəfərovun ömrünün sonlarında görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin dövrü, mühiti və müasirləri haqqında "İnsanlar və talelər" adlı iri həcmli kinopyes yazıb tamamlaması onun bədii istedadının əhəmiyyətli göstəricisidir. Həhayət, həyatının böyük bir mərhələsini həsr etdiyi akademiya həyatından bəhs edən "Get dolangilən, xamsan hələ" adlandırılan 4 pərdəli bir dram əsəri yazması Məmməd Cəfər müəllimin bədii yaradıcılığa sədaqətini, ardıcıl münasibətini təsəvvür etməyə imkan verir. Yuxarıda adı çəkilən hələlik kitab halında çap üzü görməyən bədii əsərlərin yaxın zamanlarda gözlənilən nəşri görkəmli alimin bədii yaradıcılığını daha sistemli və əhatəli şəkildə təqdim edəcəkdir.

Akademik Məmməd Cəfər Cəfərovun şəxsiyyəti ilə elmi fəaliyyəti bir-birini üzvi surətdə tamamlayır. Məmməd Cəfər Cəfərovun şəxsiyyəti də üslubu kimi sadə və dərindir. Müdriklik, kamillik, bütövlük onun əsərlərində olduğu qədər də, hətta bir az da artıq şəxsiyyətində ifadə olunurdu. Ayrı-ayrı vaxtlarda "Ədəbiyyat qəzeti"nin baş redaktoru, fakültə dekanı, kafedra müdiri, Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibi kimi məsul və mötəbər vəzifələrdə çalışanda da o, daim şəxsiyyətin aliliyini və bütövlüyünü qoruyub saxlamışdır. Fikrimizcə, əməkdar elm xadimi fəxri adı, Dövlət mükafatı laureatılığı da görkəmli alimin yüksək elmi xidmətləri ilə yanaşı, həm də təmiz adına və uca şəxsiyyətinə verilmiş qiymətlərin ifadəsidir. Məmməd Cəfər Cəfərov zəngin mənəviyyata malik mütəfəkkir şəxsiyyət idi. Onun parlaq və bütöv şəxsiyyəti əsl böyük alimin ucalığının timsalı idi. Bütövlükdə Məmməd Cəfər Cəfərovun elmi də, şəxsiyyəti də həyatda və elmdə ucalığın fəlsəfəsini tam mənası ilə ifadə edir.

***İsa HƏBİBBƏYLİ,***
***Naxçıvan Dövlət Universitetinin rektoru, Milli Məclisin deputatı, akademik***

*Akademik Məmməd Cəfər Cəfərovun "Xatirələr" memuarından bir parçanı oxuculara təqdim edirik.*